**UOT 02.61**

***Mələk Kərimova***
***Xəzər Universitetinin doktorantı***
***AZ1096,Bakı,Məhsəti Gəncəvi 11***
***E-mail:*** mkerimova@khazar.org

# FRİEDRİCH NİETZSCHENİN İNCƏSƏNƏT ANLAYIŞI

**Xülasə:** Məqalədə alman filosofu Friedrich Nietzschenin incəsənət, musiqi ilə əlaqədar fikirlərinə yer verilmiş və onun musiqini necə açıqladığı şərh edilmişdir.мNietzschenin insanın müstəqil, azad olması üçün, özünü reallaşdırması üçün qarşısında din və elm kimi maneələri qeyd etdiyi və necə ələ aldığı ifadə edilir. Məqalədə onun üstinsan anlayışına və şərhinə yer verilmişdir. Nietzscheye görə insanin azad ola bilməsi üçün nələr edə biləcəyi və insanın azad seçimininnəyi ifadə etdiyi də məqalədə incələnmişdir.

**Açar sözlər:** F.Nietzche, incəsənət, musiqi,üst insan.

Alman filosofu Fridrix Nietzsche 15 oktyabr 1844-cü ildə Lützendə anadan olmuşdur. Nietzschenin ilk kitabı “Musiqinin Ruhundan Tragediyanın Doğuşu” əsəridir. Daha sonra öz kitabını kəskin tənqid edərək Kant və Şopenhauerun təsiri altında qaldığını və bu kitabın özünə yad olduğunu qeyd etmişdir. Kitabında yazdıqlarının da köhnəldiyini qeyd edərək, “Elmə sənətkarın gözü ilə, amma sənətə həyatın gözü ilə baxmaq” cümləsi ilə bitirir. [2]

Nietzschenin yaxşı musiqi bildiyi də qeyd edilməlidir. Musiqi onun üçün əyləncə vasitəsi olmaqdan daha çoxunu ifadə edirdi.Ona görə musiqi həyata xidmət etməli və insanın önünü açmalıdır.Ona görə incəsənət insanı müstəqilləşdirən və özünü ifadə etməsini təmin edən ən yaxşı alətdir.Musiqi Nietzschenin bütün həyatını əhatə edirdi. Onun hərşeyi həyatı,fəlsəfəsi,seri, musiqi üzərində quruludur. Musiqisiz bir həyat səhv olardı deyimi də onun musiqi ilə əlaqəsini açıq göstərir.

Lassare (2011,səh 11) görə, Nietzschenin musiqi üzərinə ilk fikirləri,dünyanın metafizik estetik anlayışına dayanır.Nietzsche əslində 50-dən çox əsərbəstələmişdir. Əsərlərinin çoxu pianinoda çalmaq üçün idi.

Onun ölümündən 100 il keçdi və onunla razılaşanların sayı da gün keçdikcə artdı. Ona görə musiqi sadəcə bəstələməkdən ibarət bir proses olmayıb, həyatı başdan qurmaqdır.Musiqi onun üçün inqilabçı, yıxıcı bir funksiyanı yerinə yetirən özünəməxsus bir dil idi. "Dinimiz, əxlaqımız və fəlsəfə insanın çöküş şəkilləridir. Bu çöküşə qarşı hərəkət isə musiqidir".[1]

Nietzsche insan və onunla əlaqədar problemlərə toxunmaqla yanaşı, insanın sənət və musiqi ilə olan əlaqəsi üzərində düşünərək əsərlər yazmışdır.Günümüzdə insan və onun incəsənətlə əlaqəsi nədir? suallari bizləri düşündürür. Müasir insanın fəaliyyəti"mənalı" və "mənasız fəaliyyətə" görə ikiyə ayrılır. Müasir insandaha çox "mənasız fəaliyyət" içində özünü tapır. Müasir insan iş dünyasının şərtləri istiqamətində gündəlik rutin işlərini görür. İnsan sanki işləmək üçün yaşadığını və azad olduğunu hiss edir. Əslində bu azadlıq "sözdə" olmaqdadır. İnsan çox zaman "yaşadığı cəmiyyətdəki mədəniyyət, elm, sənət və digər fəaliyyətlərin təsiri altında düşünür və həyatını ona görə mənalandırır. İnsan əslində "xəyali bir reallıq" tərəfindən idarə edilməyə başlanılıb.Artıq texnologiyanın diktə etdiyi bir dünyada sənətin vəziyyəti, varolma tərzi də dəyişilmışdır. Sənət əsərləri fabriklərdə istehsal olunub, sənət əsərləri də alınan vəsatılan metallara dönüb.

Nietzscheyə görə insanın müstəqil, azad olması üçün,özünü reallaşdırması üçün qarşısında din və elm kimi maneələr var idi. Nietzscheyə görə həm elm, həm də din həqiqət iddiasında olduğunu deyərək, qaydalar və avtoritetlər qoymaq istər. Hər ikisi də bir mənada mütləq həqiqət və qayda adına danışaraq insanın özü olmasına mane olmaqda,onu gücsüzləşdirməkdə və insanın müstəqilliyini əlindən almaqdadır. Nietzscheyə görə insanın azad ola bilməsi və öz dəyərlərini, öz kimliyini yarada bilməsi üçün həyatın rasionallıqdan, elmilikdən, qaydalardan və dindən azad olması lazımdır. Ancaq qeyri-müəyyən olduğu zaman insan bu həyatda öz dəyərlərini yarada bilər, azad seçim edə bilər və öz münasibətilə öz dünyasını inşa edər.

Nietzsche tanrı ölübdür desə də, onun tanrısının olmadığını söyləmək səhv olardı. Onun tanrısı Dionizik olan bir tanrıydı. Onun tanrısı insanı gücsüzləşdirən, heçləşdirən, insanın özünü aldatmasının səbəbi olan, insanın özü olmasına icazə verməyən,bu dünyanı dəyərsizləşdirən bir Tanrı deyil, rəqs edən, mahnı söyləyən, içimizdəki yaşama sevincini artıran, varoluş gücümüzü məhdudlaşdırmadan reallaşmasını təmin edən bir incəsənət tanrısı, hətta musiqi tanrısı idi.

Nietzsche Tanrı öldü deyərkən, insanı gücsüzləşdirən, heçləşdirən, müstəqilliyə mane olan və onu dəyərsizləşdirən düşüncənin ortadan qalxması mənasını ifadə edirdi. Tanrı ölübsə, yeni bir yaşam modeli lazımdır. Bu model isə Tanrı Dionysos rəhbərliyində olan üst insan idi. Nietzsche "Belə buyurdu Zərdüşt" kitabında Zərdüşt xarakteri ilə üstinsanı insanlara öyrətməyi planlaşdırdı.

Nietzscheyə görə, insan aşılması lazım olan varlıqdır. Bunu reallaşdırmanın tək yolu üstinsan olmaqdır. Üstinsan dünyanın və həyatın məqsədidir. O biri dünya ümidlərindən bəhs edərək zəhər saçanlara, həyatı aşağı

çəkənlərə qarşı yox deməkdir. Üstinsan ruhi acizlikdən,əzilmişlikdən və acınacaq bir rahat düşkünlüyündən azad olmaqdır. Bunun için saxta xoşbəxtlikdən,ağıldan, ədalətdən əl çəkmək lazımdır.

Nietzsche burada ağılsız, bədbəxt, tiranvari bir həyata tutunmağı qeyd etmir tam tərsinə insanın bu dəyərləri öz başına müstəqil yaratmasından bəhs edir. Ona görə yaşamaq acıdır. O, Sopenhauerin "müəyyən sənət əsərləri pessimizə xidmət etdiyi" fikrinə qarşı çıxır. Ona görə acının yanında qorxunc və şübhəli olan şeylər, sənətkar üçün güc artışıdır. Acının altında əzilib sonsuz yaşamın ardınca gedənlər qorxaqdırlar.Onlar ölümü gözləyən insanlardır, yaşamıanlamsızlaşdıran, həyatın boş olduğunu söyləyən, insanın yaşama həvəsini qıran kimsələrdir. O kimsələr ki, dünyaya bağlanmamaq üçün əllərində nə varsa dağıdırlar, dünyadan bir an əvvəl köçmək istəyirlər.

Nietzschenin üst insanı acıdan qaçmayan, saxta xoşbəxtlik, əbədi istirahət,rahat və güvənliyə düşkünlük, cəmiyyətin içində yox olmaq fikrinə uzaq olup öz varoluşunu öz yaratdığı dəyərlərlə inşa edən biridir.

Üst insan özünü aldadan deyil, özünü zəiflədən deyil, özünü güclü hiss edən, bütün acılara baxmayaraq həyatda qala bilən, öz içində artistik bir dünya yarada bilən bir varlıqdır. O sürü insanlarının əksinə, heyvanlıqdan xilas olan, heyvani səviyyəni aşan və öz yaratdığı bir dünyada sıradışı üstün, güclü, qabiliyyəti və həyat və yaradıcılıq dolu bir xarakter sərgiləyən insandır. Nietzsche "insanlar bərabər deyil, bərabər olmamalıdırlar da". O, kollektiv dünya görüşü, dinə, demokrasi, modernlik, əxlaqa şiddətlə qarşı çıxır. O, fərqli olanın üstün olanın arxası ilə qaçır. Üstinsan dionizik şüura və təcrübəyə sahib bir insandır.Sənət əsrlərboyu mədəniyyətdən, dildən, coğrafiyadan, dini inançlardan, elmdən, fəlsəfədənheç zaman ayrılmayıb.

Nietzsche sənətə ontoloji cəhətdən yanaşır. Sənət, həyatı gücləndirən və yaşanılacaq yerdir. İnsanın yaşamını aşağıya çəkən, din, əxlaq və fəlsəfə üçün qarşı hərəkətdir.İncəsənətin ən önəmli yanı,insanı yetginləşdirməsi, zənginləşdirməsidir. İncəsənət həyatı təsdiq etməkdir, həyatda insan varlığının tanrılaşdırılmasıdır. İncəsənət yaşama tutunmaq, çətinliklərlə ilə mücadilə etmək, insanın özü ola bilməsi üçün bir vasitədir.

Sənət bizə heyvani dinçlik vəziyyətini xatırladır.Yaşam duyğusunun artışı, onun üçün stimuldur. Sənətkara görə gözəl məfhumu, bütün ziddiyyətlərin uzlaşması və ahəngi, gücün artışı, şiddətə ehtiyac duyulmaması və gərginlik olmaması mənasına gəlir.Nietzscheyə görə gözəlin və çirkinin kökəni, insanın yaşamış olduğu uzun təcrübələrdədir. İnsan instinktiv olaraq estetik cəhətdən şeylərin zərərli, təhlükəli, çirkin olduğunu bilir. Əslində gözələ və çirkinə qarşı verilən reaksiyalar insanın yaşadığı təcrübələrlə əlaqədardır.

Nietzscheyə görə hadisələr yoxdur, şərhlər vardır. Bu fikir onun incəsənət anlayışının əsasını təşkil edir. Elm, din və fəlsəfənin təqdim etdiyi reallıqlar həyatı davamlı olaraq aşağı çəkir. Həqiqətə qarşı incəsənət həyatı zənginləşdirən, həyatın bütün qeyri müəyyənlikləri ilə mənimsəyən, insanı müstəqilləşdirən və güc istəyini artıran bir şeydir. O hərkəs tərəfindən qəbul edilən incəsənət anlayışını qəbul etmir. Onun sənət anlayışında qeyri-müəyyənlik, coşqunluq, özündən keçmə vardır.Nietzsche sənət anlayışında "böyük stil" məfhumundan istifadə edir.

“Böyük stil” anlayışının məzmununda belə bir fikir yatır ki, sənətkar əsərində insanları məmnun etmək və əsərinin gözəlliyi ilə onların başını fırlatmaq fikrindən uzaqlaşmalıdır. Xalqın istədiklərindən daha çox özü kimi olmalıdır. Sənətkarın böyüklüyü, meydana gətirdiyi “ gözəl duygularla” ölçülməz, bu fikir qadınlara daha çox xasdır. Amma böyük stilə yaxınlaşdığı dərəcəyə, böyük stil tətbiq etməyə qabiliyyətli olduğu dərəcəyə görə ölçülə bilər.

Onun ilk kitabı “Musiqinin Ruhundan Tragediyanın doğuşu” iki yunan sənət tanrısı Apollon və Dionysos arasındakı ziddiyyət incələyir. Appoloncu sənət bütün gözəl sənədlərin ön şərtidir. Burada xəyali bir reallıq yaşayırıq, formanın (biçimi) dadını hiss edirik. Bu vəziyyəti o “Maya Pərdəsi” olaraq adlandırır. Bu mərhələdə xəyalların reallığını sevərək izləyər, bunlardan yola çıxaraq həyatı izah edər, bu hadisələrdə özünü həyata hazırlayırlar. Appoloncu sənətlərin məqsədi gözəllikdir. Bu bir xəyaldır, amma onu görmək istəyirəm. Dionysos tərzi sərhoşluqda cinsəllik və şəhvət vardır.Appolon tərzində isə yenə bunlar əksik deyildir.Sərhoşluq duyğusu, Nietzscheyə görə güc artışının qarşılığıdır. Dionysosun birləşdirici bir gücü var. O insanla insan arasında və insanla özgələşdirilmiş,boyunduruq altına almış təbiət arasında bağ qurar. Bir arada olmanın coşqusu və həyəcanı ilə şənlik qurar. Maya pərdəsi ancaq belə bir Dionysosçu həyəcanla cırıla bilər. Mahnı oxuyaraq və rəqs edərək insan özünü izah edər, gəzməyi və danışmağı yaddan çıxarır və sanki rəqs edərək göylərə yüksəlir.Bu coşqunun qaydası fərqlidir.Məqsədi gözəllik deyildir, gözəllikdə qayda vardır.

**Nietzscheyə görə sənət əsərinin yaranması**

Appolonik və Dionizik sənət anlayışındakı əkslik sənət əsərini ortaya çıxarır.Appolonik sənətdə gözəllik, sakitlik,hüzur, uygunluq, dionizik sənətdə isə coşqu halı, acı, sərxoşluq vardır.

Sənət əsərinin yaranmasında ikinci ünsür sərhoşluq və cinsəllikdir. İncəsənət və gözəllik istəyi beyinə ötürülən cinsi coşqu kimi dolayı istəkdir.(2010b,506).
Bu vəziyyət eyni zamanda sənətkarın səhv yola sürüklənməyinin bir yoludur. Sənətə olan istəyi ilə şəhvətə tutulan sənətkar hərşeyi böyütmə, yüksək tutma və sonsuzluq yükləməkdədir. Bu sərxoşluq vəziyyətində obyekti mükəmməleşdirir və müqəddəsləşdirir. Bu şərtlər güc artışı ilə bərabər sərxoşluq duyğusu yaradır, bu da sənəti ortaya çıxaran vəziyyətdir.Sərxoşluq güc artışının simptomudur və sərxoşluq vəziyyətinin ən üst pərdəsi də eşqdir. Aşiq, hər şeyə cəsarət edər,macəraçı olur,yüksək ürəkliliklə və məsumiyyəti ilə axmaq halına,Tanrıya, ləyaqətə inanır və diğər tərəfdən xoşbəxt axmağın qanadları və yeni qabiliyyətləri üzə çıxar vəsənətin qapısı sonuna qədər açılır.

Nietzsche sənətin fiziolojik tərəfi ilə sənətkarın içində olduğu vəziyyəti izah edir.Ona görə elm və din əslində saxta və reallıqla heç əlaqəsi olmayan xəyali bir dünya, yalanlarla qurulmuş bir dünya yaradaraq insanlara xəyanət etmişdir. Bunu fərq edəcək və varoluşunun real anlamına nüfus edəcək tək şəxs sənətkardır. Dünya əslində saxta, qəddar,ziddiyyətl, mənasız və başdan çıxarıcıdır.

Bu real dünyada yaşamaq üçün “gerçəyə” ehtiyac hiss edir. Yalanların yaşamaq üçün zəruriyyəti varoluşumuzun qorxunc və şübhəli bir parçasıdır. Metafizika əxlaq,din, elm bu yalanların müxtəlif şəkilləridir. Bunların köməyi ilə insan həyata inanç hiss edir. “Həyat güvən oyandırmalıdır” bu şəkildə zorla qəbul

etdirilən vəzifədir sanki. Bunu həll etmək üçün insanın anadan gəlmə yalançı və hər şeydən əvvəl bir sənətkar olması şərtdir. İnsanın sənət istəyinin qarşısında duran tək güc yenə sənətdir. Onun sənət görüşü əsasən musiqi ilə əlaqədardır. Musiqi varlığın özüdür. İnsan ancaq musiqi ilə özünü reallaşdırır. Sənətkar həyatın aldadıcı gözəlliyinə inanmayıb, acı ilə qıdalanan və özünü çətin olanın içinə atandır.

Beləliklə, alman filosofunun incəsənəti həyatının mərkəzinə qoyduğu,insanın özünü reallaşdırması yolu olaraq gördüyü,üst insan ya da fövqəl-insan anlayışının şərhini maraqlı şəkildə izah etdiyini görürük.

**Ədəbiyyat:**


1. Kamal N. Umberto Eko və postmodernizm fəlsəfəsi. Bakı, "Qanun" nəşriyyatı, 2012.
2. Nietzsche, Friedrich, *Nietzsche Contra Wagner*, in Walter Kaufmann (Tr. and ed.), *The Portable Nietzsche*. New York: Penguin Books, 1988.
3. Nietzsche, Friedrich, *On the Genealogy of Morality*. Tr. Maudemarie Clark and Alan J. Swensen. Indianapolis, Cambridge: Hackett, 1998. (*GM*) 87
4. Nietzsche, Friedrich, *The Anti-Christ, Ecce Homo, Twilight of the Idols, and Other Writings*. Tr. Judith Norman. New York: Cambridge University Press, 2007.
5. Nietzsche, Friedrich, *The Birth of Tragedy*. Tr. Walter Kaufmann. New York: Vintage Books, 1967. (*BT*)
6. Nietzsche, Friedrich, *The Will to Power*. Tr. Walter Kaufmann, R. J. Hollingdale. New York: Vintage Books, 1968. (*WP*)
7. Ницше Ф. Сочинения в 2-х томах, т. 2. Москва, «Мысль», 1990.


**Мелек Керимова**

**Friedrich Nietzsche: об исскустве**

**Резюме**


Проблема свободы человека находится в центре многих философских учений. Свобода человека рассматривается во всех сферах человеческого бытия. Свобода – основополагающее качество человеческой личности. В данной статье дается представление об идеях немецкого философа Фридриха Ницше об искусстве. Сильная сторона ученияНицше заключалась в том, что он настойчиво стремился преодолеть рамки позитивизма, утверждать многомерность бытия, не растворяющегося влогических пределах.


**Ключевые слова***:* искусство, музыка, Ницше, наука, философия.

**Malak Karimova**

**Friedrich Nietzsche about artSummary**

The article gives an idea of German philosopher Friedrich Nietzsche's ideas about art, music and how he explained his music. It is said that Nietzsche mentions obstacles such as religion and science in order to be free, independent of human freedom. The article provides an overview of his superiors' understanding and interpretation. It explains what he can do to free himself. It is also important to consider how the free choice of human beings will be addressed.

**Keywords**: art, music, Nietzsche, science, philosophy.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 23.05.2018 Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 30.05.2018Məqalənin çapa qəbul olunma tarixi: 21.06. 2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: fəlsəfə doktoru, dosentSevinc Şahhüseynova**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**